**Litvanın Vilnyus şəhərində “Statistikada keyfiyyət: inzibati məlumatlar və rəsmi statistika” mövzusunda seminar keçirilmişdir.**




Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi sədrinin müavini Rauf Səlimov və Keyfiyyətin idarə olunması və informasiya texnologiyaları şöbəsinin müdiri Qasım Əliyev 2013-cü ilin 4-6 sentyabr tarixlərində Avrostatın təşkilatçılığı ilə Litvanın Vilnyus şəhərində Şərqi Avropa, Qafqaz və Mərkəzi Asiya (EECCA) ölkələri üçün “Statistikada keyfiyyət: inzibati məlumatlar və rəsmi statistika” mövzusunda keçirilmiş Yüksək səviyyəli seminarda iştirak etmişlər.

Tədbirin keçirilməsində əsas məqsəd Şərqi Avropa, Qafqaz və Mərkəzi Asiya ölkələrində keyfiyyət siyasəti, keyfiyyətin təminatı, keyfiyyətin qiymətləndirilməsi kriteriyaları, insan resurslarının idarə olunması, inzibati mənbələr, rəsmi statistika, əhali registri və statistika qanunvericiliyi sahəsində əldə olunan son nailiyyətlərin öyrənilməsi, müzakirəsi və Avropa Statistika Sistemində statistik istehsalın həmahəngliyini təmin etmək məqsədilə Avropa konteksti çərçivəsində keyfiyyət təminatının və inzibati mənbələrin ümumi qəbul edilmiş və geniş istifadə olunan metodları üzərinə diqqəti cəlb etmək idi.

Seminarda Azərbaycan da daxil olmaqla Belarus, Gürcüstan, Ermənistan, Moldova, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan, Ukrayna, Özbəkistan, Estoniya, Rumıniya, Polşa, Macarıstan, İsveç, Türkiyə, Norveç və Litvanın statistika təşkilatlarının rəhbərləri və yüksək vəzifəli nümayəndələri, eləcə də Avropa Azad Ticarət Assosiasiyası, Avrostat və BMT-nin Avropa İqtisadi Komissiyasının nümayəndələri iştirak etmişlər.

Seminar çərçivəsində milli statistika sistemlərində keyfiyyət sahəsində baş verən proseslərin və ən yaxşı təcrübələrin, beynəlxalq və Avropa standartlarına uyğun olaraq inzibati məlumatların toplanması, təhlili və yayılmasına dair imkanlar müzakirə olunmuş, statistika təşkilatlarında həyata keçirilən qlobal qiymətləndirmələrin yekunları ilə bağlı tövsiyələrin yerinə yetirilməsinə dair təcrübələr bölüşülmüş, iştirakçılar arasında fikir mübadiləsi aparılmış, ölkə təcrübələrinin təqdimatları həyata keçirilmiş, Avropa Statistikasının Normalar Məcəlləsinin keyfiyyətin təminatı sahəsindəki roluna, keyfiyyətin idarəetmə mexanizminin sertifikatlaşdırılması məsələlərinə xüsusi diqqət yetirilmişdir.

Seminar 3 gün ərzində təşkil olunmuş 9 sessiyadan ibarət olmuşdur.